Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Beynəlxalq Sirk Günü

21 aprel Beynəlxalq Sirk Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

Tərtibçi: Nərmin Qədəmullazadə

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**Beynəlxalq Sirk Günü** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Qədəmullazadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.- 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

# Giriş

Sirk peşəsi heyvanlarla işləməklə bərabər müxtəlif akrobatika və gimnastika kimi sahələri də özündə cəmləşdirir. Buraya həmçinin havada kəndir üzərində yerimək, velosiped sürmək, janqlyorluq etmək və həmçinin, yerdə idman növləri yerinə yetirilir. Sehrbazlar və ya illüzionistlər sirk sənətini məşhur edən bir peşənin nümayəndələridir. Müxtəlif obyektlər, məsələn, kartları ilə sehrli manipulyasiya aparmağı bilən sənətkarlar orta əsrlər yarmarkalarında məcburi iştirakçılar idi. Müasir illüzionistlər əlləri ilə inanılmaz hərəkətlər etmək qabiliyyətinə əlavə olaraq tamaşaçıları aldatmaq üçün müxtəlif texniki fəndləri istifadə edirlər.



Janqlyor öz nümayişlərini həyata keçirən zaman əsasən top, bita, halqa və ya butulkadan istifadə edilir. Janqlyorluq sənəti İntibah dövründən etibarən Avropada geniş yayılmış və inkişaf etmişdir. XV-XVI əsrlərdən etibarən təşkil edilən festival və karnavallarda janqlyorlar araasında müxtəlif yarışlar keçirilmişdir. Qədim Misirdə janqlyorluq idman növü kimi məşhurluq qazanmışdır. Orta əsrlər isə bir peşə kimi formalaşmış və özünə



əsasən teatr dünyasının daxilində yer etmişdir. Bu gündə janqlyorluq sənəti istər hobbi kimi istərsə də peşə kimi dünyanın müxtəlif ölkələrində böyük məşhurluq əldə etməkdədir.

## Sirkin yaranma tarixi

Sirk bir qrup artist və ya müəssisə tərəfindən akrobatika, kloun, sehrbazlıq, heyvan oyunları kimi müxtəlif səhnələrlə həyata keçirilən sənət növüdür. Sirkin yaranmasının qədim tarixi vardır. Onun kökü antik Romadan başlayır.

Müasir sirkin təməlini XVIII əsrin sonunda Londonda istefada olan hərbiçi Filip Astli qoymuşdur. Astli sirk qurmağı uzun müddət planlaşdırsa da, buna imkanı çatmırdı. Bir gün o, almaz qaşlı üzük tapır. Üzüyü satıb sirk nömrələri göstərməyə yararlı olan bir yer (sahə) alır. Bu məkanda öz atı ilə birlikdə müxtəlif nömrələr nümayiş etdirir. Tamaşaya baxanlar isə nömrənin sonunda Astlinə müxtəlif hədiyyələr, pul verirlər. Bir qədər sonra o, insanların bu tamaşalara marağını görüb daha böyük ərazi alır, xüsusi arena düzəldir. Arenanı qırmızı kartonla əhatəyə alır və ətrafına oturacaqlar yerləşdirir. Artıq tamaşaçılar içəri daxil olarkən əvvəlcədən pul ödəməli idilər.

İllər keçdikcə Astlinin sirk tamaşaları daha da təkmilləşir. O öz sirkinə ip üstündə bəzi nömrələri göstərə bilən akrobatları cəlb edir, bundan sonra sirk tamaşasında bir meymun, 1816-cı ildə isə iki fil peyda olur.

Astlinin vəfatından sonra sirk fəaliyyətini dayandırsa da, XIX əsrin sonunda Avropada 20-dək sirk vardı. Onlar daha çox səyyar tamaşalara üstünlük verirdilər.

Hər il aprel ayının 21-i qeyd edilən bu bayramın təşəbbüsü Ümumdünya sirk federasiyası tərəfindən 2010-cu ildə irəli sürülüb. Həmin gün dünyanın müxtəlif ölkələrindəki sirk həvəskarlarını maraqlı proqramlar, festivallar, əyləncəli küçə yürüşləri və bir çox digər sürprizlər gözləyir. Rusiya Dövlət Sirk kompaniyası da bu bayramın keçirilməsi təşəbbüsünü yaxından dəstəkləyir.

## Azərbaycanda sirk sənəti



Azərbaycanda milli sirk sənətinin tarixi çox qədimdir. Hələ qədim zamanlardan "Kovkan", "Zorxana" kimi milli xalq oyunlarında, cıdır yarışlarında, kəndirbazların və pəhləvanların çıxışlarında bugünkü peşəkar sirkin güc jonqlyorluğu, kəndirbazlıq, akrobatika, cigitlər və digər janrlarının elementləri mövcud olmuşdur. İlk peşəkar sirk isə Azərbaycanda XIX əsrin 90-cı illərində məşhur Nikitin qardaşları tərəfindən tikilmişdir. Bu sirkdə mütəmadi olaraq Nikitinlərin rəhbərlik etdiyi qrup çıxış edirdi. 1906-cı ildə sirkin binası yandı. Ancaq qardaşlar elə həmin il onun yerində daşdan yeni sirk binası inşa etdirdilər. 1916-cı ildə Yefimovlar Nikitin qardaşlarının sökülmüş sirkinin yerində, başqa bir sirk binası tikdilər. 1924-cü ilin dekabrında yanğın bu sirki də məhv etdi və çox keçmədi ki, Y.Kudryavtsev burada öz sirkini qurdu. Bakıda sirkin fəaliyyət göstərdiyi

bütün bu müddət ərzində onun səhnəsində Rusiyanın müxtəlif şəhərlərindən gələn sirk truppaları çıxış edirdilər. O dövrün məhşur sirk truppaları Tanti qardaşlarının, Lerrinin rəhbərlik etdiyi kollektivlər də 20-ci illərdə tez-tez Bakıya qastrollara gəlirdilər.

30-cu illərdə Bakı Sirkinin kolxoz filialının əsası qoyuldu. Bu kollektivin üzvləri yerli özfəaliyyətçilər, kəndirbazlar və xalq pəhləvanları idi.

1945-ci ildə Azərbaycanda ilk peşəkar sirk kollektivi yaradıldı. Bu kollektiv Bakı Sirkinin kolxoz filialının artistlərindən, Azərbaycan estrada artistlərindən və bədii özfəaliyyətçilərdən təşkil olunmuşdu. Kollektivin "Azərbaycan toyu" adlı ilk proqramını dahi bəstəkar Üzeyir Hacıbəyov hazırlamışdı. Proqramın rejissoru Soltan Dadaşov, bəstəkarı Səid Rüstəmov, baletmeysteri Əminə Dilbazi, mətnin müəllifi Süleyman Rüstəm idi.

1966-cı ildə Azərbaycan sirk kollektivinin tərkibi nəzərə çarpacaq dərəcədə dəyişdi və həmin ilin aprel ayının 15-də kollektiv, Bakı Sirkinin səhnəsində "Qayada nişanə" adlı süjetli sirk tamaşasını nümayiş etdirdi. Bu tamaşanın ssenari müəllifləri Soltan Dadaşov, Mikayıl Cəbrayılov, L. Kukso və Yevgeni Ryabçukov, rəssamları E. Almaszadə və A. Falkovski, bəstəkarı Rauf Hacıyev, baletmeysteri V. Leonov, proqramın bədii rəhbəri Səyavuş Şəfiyev idi. Əsas rolları Ağasala Rəsulov, Şəfiqə Baxşəliyeva, A. Əsgərov oynayırdılar. Tamaşada həmçinin kəndirbaz Cəmaləddin Zalov, Y. Mərdanovun atlı igidləri, Nina Şubina və Tofiq Axundovun ekvilibr dueti, janqlyor Xanlar Rəsulov, klounlar Şulu və Qulu -Kamal Abdullayev və Qasım Məlikov da çıxış edirdilər.




1967-ci ildə Bakı sirkinin həyatında ən əlamətdar hadisələrdən biri baş verdi . Arxitektorlar E. İsmayılov və F. Leontyevanın layihəsi əsasında müasir teatr-sirk avadanlıqları ilə təchiz olunmuş 2400 yerlik sirk binası tikildi.

Yeni sirkin arenasında çıxış etmək üçün qonşu ölkələrin və Azərbaycanın ən istedadlı sirk ustaları Bakıya toplaşmışdı. Yeni sirkin texniki imkanları dünyanın ən möhtəşəm sirk kollektivlərini Bakıya dəvət etməyə imkan yaradırdı. 70-ci illərdə Bakı sirkinin ən qocaman nümayəndələrindən biri - Azərbaycan SSRİ xalq artisti Xosrov Abdullayevin rəhbərlik etdiyi qrupun hazırladığı orijinal sirk nömrələri keçmiş SSRİ-nin və bir çox xarici ölkələrin manejlərində müvəffəqiyyətlə nümayiş etdirilən ən maraqlı proqramlardan idi.

80-ci illərin sonunda Bakı sirkində məhşur nömrələrlə yanaşı gənc artistlərin də çıxışlarına geniş yer verilirdi. Azərbaycan artistlərinin qazandığı saysız - hesabsız uğurlar yeni sirk proqramının yaradılması zərurətini meydana çıxartdı.

“Azərbaycan işıqları” adlanan bu sirk proqramının hazırlanması üçün rejissorlar Ramiz Əliyev və Aleksandr Qorodetski, bəstəkar Tofiq Quliyev, rəssam Toğrul Nərimanbəyov və baletmeyster Nailə Nəzirovadan ibarət çox güclü quruluşçu heyət yaradıldı. Proqramda Sabir

Səmədovun rəhbərliyi ilə “Alov” atlı igidlər qrupu, İqor Çijovun rəhbərliyi ilə “Qobustan rəsmləri” hava kəndirbazları nömrəsi, Fuad Əliyevin rəhbərliyi ilə akrobatik ansambl, Alik Qurbanovun rəhbərliyi ilə “İkariya oyunları” akrobatik nömrəsi, pəhləvan Yusif Mehdiyevin nömrəsi və İlya Nisanovun rəhbərliyi ilə klounlar qrupu və başqa nömrələr uğurla nümayiş etdirilirdi. Proqram o qədər gözəl alınmışdı ki, 1988-ci ildə Moskvanın Böyük sirkinə dəvət aldı.

Yüz ildən artıq bir zaman kəsiyində bizlərə sehr, həyacan və sevinc dolu anlar yaşadan Bakı Sirkinin maneji bu sirkin fanatları hesabına yenə də öz müqəddəs missiyasını - sənətə və insanlara xidmət vəzifəsini yerinə yetirir. Bu gün Bakı Dövlət Sirkinin səhnəsində dünyanın müxtəlif ölkələrindən dəvət olunan kollektivlər çıxış edirlər.

## Xarici ölkələrdəki sirklər

Dünyada minlərlə sirk var və bunların bir neçəsi dünya tərəfindən məşhurdur. Məsələn, dünyanın ən qədim sirk truppalarından biri Çin akrobatik sirkidir "Orta Krallığın Paradise Show" və ya Kanadalı "Günəş Sirki", əsas üstünlüyü yalnız ayrı bir sirk təşkilatı deyil, dünyanın müxtəlif ölkələrində ofisləri olan nəhəng bir sirk korporasiyadır. Atlantis sirki su altı dünyasına marağı olanlar üçün maraq oyandırıcı atmosferə malikdir. Sirkə addım atdığınız andan etibarən su altı dünyasının ovsunlayıcı canlıları ilə üz –üzə qalacaqsız. Burada bir-birindən rəngli görüntülər izlədikdən

sonra sirklərdə görməyə öyrəşdiyimiz fillərin, pələnglərin, itlərin şoularını görəcəksiniz.



Paris sirki dünyanın ən çox maraq doğuran şoularına ev sahibliyi edir. Sirkin tamaşaçılarının böyük əksəriyyətini dünyanın fərqli yerlərindən gələn uşaqlar təşkil etsədə, böyüklər üçün nəzərdə tutulmuş proqramlar az deyil.

Çin Dövlət Sirki göstərdikləri şou proqramlarına görə artıq bir marka halına gəlmişdir. Xüsusilə aksiyon filmlərində görməyə öyrəşdiyimiz səhnələri burda görmək mümkündür. Nəhəng heyət ilə diqqət çəkən sirk 1951-ci ildən bu yana bacarıqlı akrobatları ilə dünyanın hər yerindən özünə tamaşaçı kütləsi toplamışdır.

Fransa torpağlarında qurulmuş Medrano sirki hər il dünyanın müxtəlif ölkələrinə turlar təşkil edirlər. Əsasən rusların işlədiyi bu sirkdə bugünə qədər bir çox tanınmışlar şoular göstəriblər. 1965-ci ildən bəri "Jim Carrey, Barbra Streisand, Cüneyt Arkın " kimi adlar yer alıb. Bugünə qədər göstərdikləri performans, topladığı tamaşaçı sayı ilə dünyanın ən uğurlu sirkləri siyahısında yer almışdır.

Kazanda sirk binası 1967-ci ildə inşa edilmişdir. Ölkədə ilk sirk binasıdır. Sirkdə ilk dəfə iki oyunçu və kommunal otaqlar var idi: sarğı, mətbəx, heyvan qurğuları, rəqs sinfi. Binanın

hündürlüyü 23 metr, diametri "boşqab" - 65 metr idi. Salonda 2,5 min yer hazırlanmışdır.

Yekaterinburqdakı sirk 1980-ci ildə İset çayının sağ sahili üzərində qurulub. Onun bədii xüsusiyyətlərindən biri açıq bir lattice günbəzidir. Bu, Avropadakı ən yaxşı sirk binalarından biri olduğuna inanılır. Sirkin daxili hissəsi Ural daşla ayrılır. Auditoriya 2,5 min yer üçün hazırlanmışdır.

1971-ci ildə inşa edilmiş Novosibirskdəki sirk Moskva Hyprovetr İnstitutu tərəfindən hazırlanmış yeni bir layihə idi. Bina elə bir şəkildə tərtib edilmişdir ki, lazım olduqda, yalnızca sirk tamaşalarını göstərmək üçün deyil, həm də konsertlər, kütləvi görüşlər, idman tədbirləri və sərgilər üçün də istifadə edilə bilərdi. Arenada 2,3 min tamaşaçı yerləşdirmək üçün nəzərdə tutulmuşdur.



## Rəsm müsabiqəsi

Beynəlxalq Sirk Günü münasibəti ilə kitabxananın kiçik oxu zalında "Uşaqların Gözündə Sirk" adlı rəsm müsabiqəsi etmək məqsədəuyğundur. Öncədən hazırlanmış elanda müsabiqənin bütün şərtləri verilmişdir. Sonda 3 yerin qalibinə kitabxana rəhbərliyi tərəfindən maraqlı nağıl kitabları təqdim edilir.















# Şən Viktorina

Beynəlxalq Sirk Günü ilə əlaqədar kitabxananın oxu zalında metodist uşaqlarla birgə viktorina təşkil edə bilər. Sirk ilə bağlı bir-birindən maraqlı suallar öncədən metodist tərəfindən hazırlanmışdır. Verilən suallara ən çox düzgün cavab vermiş uşaq qalib sayılaraq, sonda dəyərli hədiyyə ilə mükafatlandırılacaq.

Həmin sualları sizlərə təqdim edirik:

1.Sirk sözü neçə hecalıdır?

Cavab: 1 hecalı

2.Ən çox sirkə kimlə getməyi sevirsiz?

Cavab:-

3.Sirkdə hansı heyvanları görmək istəyirsiz?

Cavab:-

4.Sirkdə hansı şou proqramları görmək istəyirsiz?

Cavab:-

5.Sirk sözünün mənasını kim bilir?

Cavab: Dairə

6.Sirkdə hansı şou proqramlarını görmüsüz?

Cavab: kəndir üzərində yerimək, velosiped sürmək, janqlyorluq etmək, kloun, sehrbazlıq, heyvan oyunları və s.

7. Sirkdəki personajların şəkillərini kimlər çəkə bilir?

Cavab:-

8.Sirk sözündə neçə samit var?

Cavab: 3 samit

9. Beynəlxalq Sirk Günü nə zaman qeyd olunur?

Cavab: 21 aprel

10. Sirkdə ən çox sevdiyiniz şou proqram hansıdır?

Cavab:-

11. Kloun sözündə neçə sait var?

Cavab: 2 sait

12. İlk dəfə sirkə kiminlə getmisiz?

Cavab:-

## Sual-Cavab

Metodist oxu zalında məktəblilər üçün nəzərdə tutulmuş sualları kitabxanaya gələn oxuculara ünvanlayır. Sual-cavabda sirk haqqında bir çox maraqlı məlumatlara toxunulur. Ən çox doğru cavab verən oxucu kitabxana rəhbəri tərəfindən maraqlı bədii kitablarla mükafatlandırılır.

İndi isə sizlərə həmin sualları təqdim edirik:

1.Dünyada ilk sirk harada yaradılıb?

Cavab: London

2.Hansı ölkələr sirklərdə heyvanların istifadəsinə qadağa edib?

Cavab: Avstriya, Boliviya, Meksika, Malta, İsrail, Peru, Sinqapur, Salvador, Kipr, Kosta-Rika, Slovakiya, Yunanıstan Meksika

3.İlk dəfə Azərbaycanın milli sirk truppası nə zaman yaradılmışdır?

Cavab: 1945-ci ildə

4. Azərbaycanda ilk peşəkar sirk - heyvanxana isə məşhur kim tərəfindən tikilmişdir?

5.Beynəlxalq Sirk Günü təklifi kim tərəfindən irəli sürülüb?

Cavab: Monako şahzadəsi Stefaniyanın prezidenti olduğu Ümumdünya sirk federasiyası tərəfindən

6.Azərbaycanda qədim sirk şoularından hansıları misal çəkə bilərsiz?

Cavab: "Kovkan", "Zorxana" kimi milli xalq oyunları, cıdır yarışları, kəndirbazların və pəhləvanların çıxışları, bugünkü peşəkar sirkin güc jonqlyorluğu, kəndirbazlıq, akrobatika, cigitlər

7. Bakı Dövlət Sirkinin memarları kimdir?

Cavab: E.İsmayılov və F.Leontyev

Dünyanın ən böyük stasionar sirki harada yerləşir?

Cavab: Vernadsky prospektindəki Böyük Moskva Dövlət Sirki

## Sərgi ətrafında oxucularla söhbət




Sirk Müdürünün Kızı, Sofinin dünyasının yazarı Jostein Gaarderin dövrümüzün ailə və təhsil düzənini qınadığı bir roman… Petter, xəyalpərəst bir uşaqdır. Nə uşaq olarkən nə də sonraları standart insan modelinə uyğunlaşmır. O da zəngin xəyal gücünü pula çevirmənin bir yolunu tapır və mövzu tapa bilməyən yazarlara roman və hekayə mövzuları satır. Yüzlərcə kitabın kölgə yazarı olan bu yalnız xəyalpərəst, xəyal və gerçəyin bir-birinə qarışdığı romanda, uşaq olarkən dediyi sirk müdürünün qızı Panina Manina`nın hekayəsini dəfələrlə deyəcək və yaşayacaqdır… Hər sətiri oxucunu heyrətə düşürəcək bir roman…




Sirk qaçan bir it olan Tina, dostları ilə birlikdə öncədən işlədiyi sirkə hücum edib çətin vəziyyətdəki heyvanları xilas etməyi planlayır. Amma nəzərə almadığı çox çətinlik və xoş hadisələr onları gözləyir. İnsanlara rəğmən dünyayı özləri üçün azad və xoş yaşana biləcək yer etməyə çabalayan Kuyruklular Çetesi'nin yeni macərası tam birincisinin bitdiyi yerden davam edir!




On iki yaşındakı Nevanın həyatı, məktəbdən kursa, kursdan bir başqa kursa keçməkdədir. İşlerin tərs getdiyi bir gün, ailəsi köçməyə qərar verir. Artıq sakit bir həyat keçirəcəkdir. Amma işlər planladığı kimi getməz. Şəhərin naməlum bir sakini sehirbaz Jerfi Adasalın Nevanın dostu Olguna hədiyyə etdiyi tək təkərli velosiped, iki dostu heç gözləmədikləri bir yerə götürəcək: Zamansızlar Sirki!

Özünü bir anda sirkdə tapan oxucular, nəfəssiz bir macəraya çəkilir.









## Sirkdə bir gün

Metodist kiçikyaşlılarla birlikdə Bakı Dövlət Sirkinə ekskursiya təşkil edə bilər. Öncədən kitabxananın rəsmi saytında elan paylaşılır. Elanda ekskursiyanın nə zaman keçiriləcəyi haqqında məlumat verilir. Həmin gündə kitabxanada toplaşdıqdan sonra sirkə gedilir. Burada uşaqlara maraq doğuran hər şey barəsində metodist tərəfindən məlumat verilir. Sirkdə göstərilən maraqlı çıxışlara baxılır. Sonda xatirə şəkli çəkilir.

## İnşa müsabiqəsi

Beynəlxalq Sirk Günü ilə bağlı "Uşaqların Gözündə Sirk" adlı inşa müsabiqəsi keçirmək məqsədəuyğundur. 1 həftə qabaq kitabxananın rəsmi saytında elan yerləşdirilir. Elanda müsabiqənin şərtləri, təhvil verilmə tarixi qeyd olunur. Təyin olunmuş zamanda bütün oxucular yazdıqları inşaları kitabxanaya yaxınlaşaraq kitabxanaçıya təhvil verir. Sonda ən gözəl yazılmış inşa qalib sayılır. Həmin oxucu rəhbərlik tərəfindən dəyərli hədiyyələr ilə mükafatlandırılır. Sirk uşaqların dünyagörüşünün inkişaf etdirilməsində olduqca əhəmiyyətlidir. Buna görədə mütamadi olaraq uşaqları sirkə aparmaq gərəklidir. Bir-birindən maraqlı şou proqramlar insanın zövqünü oxşayır. Sirk peşəsi heyvanlarla işləməklə bərabər müxtəlif akrobatika və gimnastika kimi sahələri də özündə cəmləşdirir. Buraya həmçinin havada kəndir üzərindəyerimək, velosiped sürmək, janqlyorl uq etmək və həmçinin, yerdə idman növləri yerinə yetirilir. Hər il aprel ayının 21-i qeyd edilən bu bayramın təşəbbüsü Ümumdünya sirk federasiyası tərəfindən 2010-cu ildə irəli

sürülüb. Həmin gün dünyanın müxtəlif ölkələrindəki sirk həvəskarlarını maraqlı proqramlar, festivallar, əyləncəli küçə yürüşləri və bir çox digər sürprizlər gözləyir.

**Ədəbiyyat siyahısı**

***Dövrü mətbuatda***


**Azəri L.** Manejdə bitən ömür : Azərbaycanın ilk heyvan təlimçisi kimi tanınan Ələkbər Fərrux ölkəmizdən kənarda da məşhur olub // Mədəniyyət. - 2019. - 18 yanvar. - № 5. - S. 7.

**Azəri L.** Sirk sənətinin parlaq ulduzu : Xosrov Abdullayev // Mədəniyyət : qəzet. - 2021. - 10 fevral. - № 10. - S. 6.

**Əlicanzadə Q.** Azərbaycan sirkinin dünya sirk sənətinin inkişafında rolu // Mədəniyyət.az. - 2019. - № 325. - S. 86-89.

**İlk** sirk **necə** yaranıb // Tumurcuq. - 2008. - № 9. - dekabr. - S. 8.

İncəsənətin ən qədim növü // Savalan. - 2019. - 17-23 sentyabr. - № 35. - S. 8.

**Məmmədov R**. Bakı Dövlət Sirkinin yaranma tarixindən // Mədəniyyət.az. - 2018. - № 321. - S. 76-79.

**Məmmədov R**. Şəhərimizin memarlıq incisi : Bakı sirki - 45 // Mədəniyyət. - 2012. - 26 dekabr. - № 94. - S. 10.

**Məmmədov R.** Sirk sənəti - keçmişdən bu günə // Kaspi. - 2012. - 13 -15 oktyabr. - № 404. - S. 23.

**Məmmədov R**. Sirk sənətimizin yubilyar veteranı : Ağasala Rəsulov - 85 // Mədəniyyət. - 2019. - 2 avqust. - № 55. - S. 1, 5.

# Beynəlxalq Sirk Günü

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**